## Limbik ensefalit nədir ?

Limbik ensefalit beyinin temporal bölgəsini (gicgah payı) əhatə edən ensefalit növüdür. Limbik bölgə yaddaş, əhval-ruhiyyə, davranış və qoxu ilə əlaqəli bir bölgədir.

## Klinik əlamətlər :

- Şəxsiyyət dəyişikliyi
- Depressiya
- Halüsinasiyalar
- Narahatlıq
- Yaddaş pozğunluğu
- Epileptik tutmalar
- Huşun itirilməsi
- İflic

## Limbik ensefalitə necə diaqnoz qoyulur?

Limbik ensefalit diaqnozu çətin qoyulur, xəstəlik yüngül simptomlarla başladığı üçün diaqnoz çox vaxt gecikmiş olur. Beyin MRT, BOM analizi və qanda anti-neyronal anticisim adlanan beyin hüceyrələrinə qarşı anticisimlərin təyini diaqnozun qoyulmasında mühüm rol oynayır. Bu müayinələrdən başqa, xüsusilə qıcolması olan xəstələrdə EEQ tələb oluna bilər.

## Limbik ensefalit paneli

- Anti-NMDA
- Anti-LGI1
- Anti-CASPR2
- Anti-qlutamat tip AMPA 1 (Glu1)
- Anti-qlutamat tip AMPA 2 (Glu2)
- Anti GABA B reseptor (GABABARB1/B2)

**Nümunə növü:** zərdab, BOM


Referans
Klinik Laboratoriya Mərkəzi
&
Poliklinik

*0033
ÇAĞRI MƏRKƏZİ

- **Referans Klinik Laboratoriya Mərkəzi:** Nərimanov ray., M. Məmmədzadə küç. 8A
- **Referans Poliklinik Nəsimi filialı:** Nəsimi ray., M. Mirqasımov küç. 25A
- **Referans VIP filialı:** Səbail ray., Z. Əliyeva küç. 107A
- **Referans Poliklinik Əhmədli filialı:** Xətai ray., M. Hadi küç. 229D
- **Referans Poliklinik Mərdəkan filialı:** Xəzər ray., Mərdəkan qəs., Yesenin küç. 58
- **Referans Binəqədi filialı** (8-ci Stomatoloji Poliklinika)**:** Binəqədi ray., Azadlıq pr. 167
- **Referans Poliklinik Bayıl filialı:** Səbail ray., Ak. Ə. Yaqubov küç. 19
- **Referans Sumqayıt Tibb Mərkəzi:** Sumqayıt şəh., S. Vurğun küç. 119
- **Referans Səyyar Ağstafa filialı:** Ağstafa şəh., Dəmiryolu vağzalı dax.
- **Referans Qəbələ Tibb Mərkəzi:** Qəbələ şəh., A. Səhhət küç. 25A
- **Referans İsmayıllı Səyyar Qanalma Məntəqəsi:** İsmayıllı şəh., M. F. Axundov küç. 65
- **Referans Quba Tibb Mərkəzi:** Quba şəh., M. Qorki küç.
- **Referans Səyyar Tibb Qatarı:** Xaçmaz şəh., Dəmiryolu vağzalı dax.
- **Referans Lənkəran filialı** (Avicenna Medical Center dax.): Lənkəran şəh., S. Bayramov küç. 19

| | | |
|---|---|---|
| Referans ESTETİK MƏRKƏZİ | Nərimanov ray., M. Araz küç. 105A | *0033 ÇAĞRI MƏRKƏZİ |
| 36.6 med Gəncə | Gəncə şəh., Atatürk pr. 120B | *0033 ÇAĞRI MƏRKƏZİ |
| Referans AMBULANCE | Azərbaycanın ilk ÖZƏL Təcili Tibbi Yardım və Hava Ambulansı xidməti | *0003 ÇAĞRI MƏRKƏZİ |
| MASMEDICAL CENTER Masallı | Masallı şəh., Qarabağ küç. 20 | *0033 ÇAĞRI MƏRKƏZİ |
| Referans EŞİTMƏ MƏRKƏZİ | LOR Hospital<br>Referans Əhmədli filialı dax.,<br>36.6 Med Gəncə filialında | *0111 ÇAĞRI MƏRKƏZİ |

Referans MEDICAL GROUP | Klinika Referans Medical Group daxilində fəaliyyət göstərir

info@referansclc.com
www.referansclc.com



Referans
Klinik Laboratoriya Mərkəzi
&
Poliklinik


# VİRAL VƏ LİMBİK ENSEFALİT PANELİ




Referans MEDICAL GROUP | Klinika Referans Medical Group daxilində fəaliyyət göstərir

*0033
ÇAĞRI MƏRKƏZİ

## ENSEFALİT NƏDİR?

Ensefalit baş beyinin iltihabi xəstəliyidir. Ensefalit beyin və onurğa beyninin iltihabi prosesi ilə gedən meningitdən fərqlənir, ancaq hər iki xəstəlik oxşar simptomlara malikdir.

## ENSEFALİTİN DİFFERENSİAL DİAQNOSTİKASI

- Anamnez və fiziki müayinə
- Qanın ümumi analizi
- BOM (beyin-onurğa beyin mayesi) analizi
- Beyin tomoqrafiyası (KT) və ya Maqnit Rezonans Tomoqrafiyası (MRT)
- EEQ (Elektroensefaloqramma)
- BOM-da Viral Ensefalit PCR Paneli
- BOM və zərdabda Limbik ensefalit və ya Paraneoplastik Panel

## Viral (virus) ensefalit

Ensefalitlər ən çox viruslar tərəfindən törədilir. Viral ensefalit simptomlara görə qripə bənzəyir və adətən iki-üç həftə davam edir. Beyinin tutulan bölgəsindən asılı olaraq, ensefalitlərin yüngül formaları və həyati təhlükəsi olan, ölümlə nəticələnən formaları ola bilər. Bəzi hallarda sinir zədələnməsi qalıcı xarakter daşıya bilər.

## VİRAL ENSEFALİTİN SƏBƏBLƏRİ

- **Herpes simplex virus** (HSV1, HSV2)
- **Digər herpes virusları** (Varicella zoster virusu (VZV), Sitomeqalovirus (CMV), Epstein-Barr virusu (EBV), İnsan herpes virusu 6 (HHV6), İnsan Herpes Virusu 7 (HHV7))
- **Adenovirus**
- **İnfluenza A**
- **Enterovirus, Poliovirus**
- **Uşaq xəstəlikləri virusları** (Qızılca, Parotit, Məxmərək)
- **Quduzluq**
- **Arboviruslar** (Yapon B ensefaliti virusu, Sent-Luis ensefaliti virusu, West Nile ensefaliti virusu)
- **Bunyaviruslar** (La Crosse Kaliforniya virusu)
- **Reoviruslar** (Kolorado gənə qızdırması virusu)
- **Arenaviruslar** (Limfositik xoriomeningit)

## KLİNİK ƏLAMƏTLƏR

**Yüngül simptomlar:**
- Yüksək hərarət
- Baş ağrısı
- Qusma
- Boyun tutulması
- Yorğunluq (tükənmişlik)

**Kəskin simptomlar:**
- 39,4 ° C və ya daha yüksək temperatur
- Şüur bulanıqlığı
- Əsəbilik
- Uyuşma
- Halüsinasiyalar
- Hərəkətlərdə yavaşıma
- Koma
- Tutmalar
- İşığa həssaslıq

**Uşaqlarda simptomlar:**
- Qusma
- Fontanellərdə (əmgəkdə) şişkinlik
- Daimi ağlamaq
- Bədən sərtliyi
- Anoreksiya

## VİRAL ENSEFALİT PANELİ

- Adenovirus (AdV)
- Cytomegalovirus (CMV)
- Epstein Barr Virus (EBV)
- HSV tip 1 və 2
- Varicella Zoster (VZV)
- Enterovirus
- Parechovirus
- Parvovirus
- Herpes Virus Tip 6 (HHV6)
- Herpes Virus Tip 7 (HHV7)

**Nümunə növü:** BOM

Viral ensefalit müalicə olunmadığı təqdirdə, 70% hallarda ölümlə nəticələnir. Xəstələrdə nitq , yaddaş pozğunluğu, demensiya və ya postensefalit sindromu yarana bilər.

Postensefalit sindromu Klüver-Busi sindromu kimi də tanınır. Bu sindromda hərəkət itkisi, hiperseksuallıq, demensiya, yaddaş pozğunluğu, beyinin gözdən gələn sensor məlumatı tanıya bilməməsi (vizual aqnoziya ) müşahidə olunur.

| Klinik Əlamət | Əlaqəli virus |
|---|---|
| Limfadenopatiya | HIV, EBV, CMV, qızılca, məxmərək, West Nile virusu |
| Parotit | Parotit |
| Səpgi | VZV, HHV 6, West Nile virusu, məxmərək, Enterovirus |
| Tənəffüs əlamətləri | İnfluenza virusu, Adenovirus |
| Retinit, sidik yollarının simptomları | CMV, West Nile virusu, Sent-Luis ensefaliti virusu |
| Serebral ataksiya | VZV, EBV, parotit, Sent-Luis ensefaliti virusu |
| Kranial sinir anomaliyaları | HSV, EBV |
| Demensiya | HIV, Creutzfeldt-Jacob, Qızılca virusu (SSPE) |
| Parkinson xəstəliyi | Yapon B ensefaliti virusu, Sent-Luis ensefaliti virusu, West Nile virusu |
| Poliomielitə bənzər iflic | Yapon B ensefaliti, West Nile, Gənə ensefaliti, Enterovirus (enterovirus-71, koksaki), Poliovirus |
| Rhombencephalitis | HSV, West Nile virusu, Enterovirus 71 |